**01.01.2026-cı il tarixindən etibarən 3 il müddətinə**

İctimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən, POS-terminal vasitəsilə aparılan nağdsız ödənişlər əsasında formalaşan dövriyyənin 50% ƏDV tutulan ümumi dövriyyədən çıxılır.

Bu çıxılma nəticəsində ƏDV məbləğinin azalması hesabına əldə edilən gəlirlər mənfəət (gəlir) vergisindən azad edilmişdir.

BAKI — 2026

DÖVLƏT VERGİ XİDMƏTİ

# İctimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin nəzərinə

**Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 01.01.2026-cı il tarixindən etibarən**

İctimai iaşə fəaliyyəti ilə məşğul olan və **8%** dərəcə ilə sadələşdirilmiş vergi ödəyən şəxslər müəyyən şərtlər daxilində istənilən vaxt fəaliyyətlərini **2%** dərəcə ilə sadələşdirilmiş vergi ödəyicisi kimi davam etdirə bilərlər.

**ŞƏRTLƏR**

- vergiyə cəlb olunan əməliyyatların əvvəlki tam 12 təqvim ayı üzrə ümumi məbləği **100.000** manatdan çox olmamalıdır;
- vergi ödəyicisi mövcud vergi rejimində azı **1 il** müddətində fəaliyyət göstərməlidir,
- bununla bağlı vergi orqanına rəsmi müraciət edilməlidir.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Əlavə qeyd**

Vergiyə cəlb olunan əməliyyatların ümumi məbləği hesablanarkən ictimai iaşə fəaliyyəti üzrə POS-terminal vasitəsilə həyata keçirilən nağdsız ödənişlərdən formalaşan dövriyyə 2 dəfə azaldılmaqla (**0,5 əmsal tətbiq edilməklə**) nəzərə alınır.

**Nə dəyişdi?**

İctimai iaşə fəaliyyəti ilə məşğul olan və 8% dərəcə ilə sadələşdirilmiş vergi ödəyən şəxslər **2 faiz** dərəcə ilə verginin ödənilməsinə imkan verən dövriyyənin yuxarı həddi hesablanarkən ictimai iaşə fəaliyyəti üzrə həyata keçirilmiş nağdsız dövriyyə **2 dəfə** azaldılaraq nəzərə alınır.

**Misal:** İctimai iaşə fəaliyyəti ilə məşğul olan və 8% dərəcə ilə sadələşdirilmiş vergi ödəyən şəxsin əvvəlki tam **12 təqvim ayı** üzrə ümumi vergi tutulan əməliyyatların həcmi **160.000** manat, həmin dövr üzrə ictimai iaşə fəaliyyəti üzrə POS-terminal vasitəsilə həyata keçirilmiş nağdsız ödənişlərin məbləği **130.000** manat təşkil etmişdir. Vergi ödəyicisi daha aşağı dərəcə (2 faiz dərəcə) ilə (160.000-130.000*0.5) sadələşdirilmiş vergisini ödəmək hüququnu əldə edir.

**01.01.2026-cı il tarixindən 3 il müddətinə**

İctimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən əhaliyə göstərilən xidmətlər üzrə POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərdən formalaşan vergitutma obyekti üzrə sadələşdirilmiş vergi 6% ilə hesablanılır.

**Nə dəyişdi?**

Dəyişiklikdən əvvəl ardıcıl **12 aylıq dövrün** istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi **200.000** manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər qeyri-şərtsiz olaraq 8% dərəcə ilə sadələşdirilmiş vergi ödəyirdilər.

Dəyişikliklikdən sonra həmin şəxslər əhaliyə göstərilən xidmətlər üzrə POS-terminal vasitəsilə həyata keçirilən nağdsız ödənişlərdən sadələşdirilmiş vergini **6%** dərəcə ilə hesablayırlar.

**ŞƏRTLƏR**

Nağdsız ödənişlər nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə həyata keçirilməlidir.